# Hacıqabul pambıqçıları əvvəlki göstəriciləri təzələmək əzmindədirlər

***Son günlərin aramsız yağışlarından sonra günəşli isti havanın üzlərdə yaratdığı sevinci hiss etməmək, sadəcə, mümkün deyil. Bu sevinci yaşayanlar isə əkdikləri məhsulu yığmaq üçün sahələrə tələsən zəhmət adamlarıdır. Zarafat deyil, aylarla min cür nazını çəkdikləri məhsulu toplamaq üçün günəşli hava sanki ulu Tanrının əvəzsiz bir bəxşişidir. Rayon icra hakimiyyətinin başçısı Əhməd Muxtarovun təklifi də lap yerinə düşür:***



-- Bələkə bələdçi qoşaq, gedib Padarda pambıq sahələrindəki yığımı özünüz yerində görüb, müşahidə edəsiniz, o zaman təəssüratınız da, yüz faiz əminəm ki, başqa cür olacaq. Atalar demişkən, yüz eşitməkdənsə, bir görmək yaxşıdır.

Yeri gəlmişkən, söhbət əsnasında Əhməd müəllim qeyd etdi ki, Hacıqabul rayonunda ən çox pambıq həlle sovetlər dönəmində, konkret olaraq 1982-ci ildə əkilib, 700-800 hektarda. 2017-ci il üçünsə 1200 hektar sahədə pambıq əkiləcək. Bu, həm də o deməkdir ki, gələn il Hacıqabul yeganə rayon olacaq ki, əvvəlki ən yüksək göstəricisini də təzələyəcək. Nə deyirəm ki, belə ürəkaçan məlumata və yaradılan imkana görə ancaq minnətdarlıq etmək və deyilən hədəfə daha tez çatmaq həvəsi adamı ruhlandırır.

Hə, az qala bələdçimi təqdim etməyi yaddan çıxarmışdım: Nurbala Mirzəyev rayon kənd təsərrüfatı idarəsinin rəisidir. El arasında deyildiyi kimi, "köhnə kişilərdəndir". İyirmi yeddi yaşından təsərrüfatın bütün sahələrində çalışıb, kifayət qədər iş və təsərrüfat rəhbərliyi təcrübəsi var. Onunla rayon kənd təsərrüfatı idarəsinin həyətində görüşürük. Tanışlıqdan sonra təravəti ilə göz oxşayan gül-çiçəyə tərəf işarə ilə deyir:

– Müəllim, baxın, pambıq koludur.

Düzü, çaşıb qalıram, necə yəni pambıq kolu. Birdən gözüm gül-çiçəyin arasındakı pambıq koluna sataşır. Təəccübləndiyimi görüb dillənir:

– Vallah, heç bilmirik hardan gəlib bura düşüb. Görürsüz, üstündə nə qədər pambıq var?!

Hə, doğrudan da, kolun üstündəki pambıq göz oxşayır, yarızarafat-yarıciddi deyirəm:

– Yəqin qayğı göstərilib ki, belə alınıb...

Fikrimi təsdiqləyirmiş kimi deyir: – Ümumiyyətlə, pambıq suyu və Günəşi çox sevir. Bu iki amil olduqda şübhəsiz ki, məhsul mütləq bol olacaq. Hacıqabulda da ki, Allaha şükür, hər ikisi var. Deməli, bura pambıqçılıq üçün əlverişli iqlimə malikdir.

Söhbətin ilk hissəsini tamamlayaraq yola düzəlirik. Rayon mərkəzi ilə getdiyimiz ünvan arasındakı məsafə 40 kilometrə yaxındır. Yol boyu sağ-solda sıralanmış əkin sahələri ilə bağlı yığcam və dəqiq məlumatlara söz ola bilməz, necə deyərlər, təcrübə öz sözünü deyir. Qəfildən yol yoldaşımın dilindən çıxan "Allaha şükür, qambay da gəlib çıxdı" sözlərini eşidəndə yenə bir anlıq çaşıb qaldım. Birdən səliqəsi ilə göz oxşayan sahənin dərinliklərinə doğru irəliləyən kombaynı görəndə bu qəfil sevincin də, "qambay"ın mənasını da başa düşürəm. Sən demə, ən gözəl ünsiyyət vasitəsi olan dil burada da kara gəlib, "kombayn" sözünü yumşaldaraq daha rəvan hala salıb. Əlbəttə, "qambay" sözü ilə "kombayn" sözləri arasındakı fərqi beynimdə çözməyə fürsət tapmamış bələdçinin cib telefonu ilə zəng etməsi məni dilçiliklə bağlı "mühüm" fikirlərdən ayırır:

– Vaxtınız xeyir, cənab başçı, "qambay" gəlib çıxdı, indicə sahəyə girdi, dedim sizə məlumat verim. Narahat olmayın, gecəni də işləyəcəyik, belə əlverişli hava bir də çətin ələ düşər.

Üzündəki sevinc ifadəsinə qarışan narahatlığın yaratdığı gərginlik səsində də hiss olunur:

– Kaş ki, biri də olaydı, camaatın zəhməti heyifdi, məhsul zay olub getməsin.

"Niyə zay olur ki" sualını (və yəqin ki, həm də təcrübəsizliyimi) dərhal üzümdən oxuyaraq dillənir: Qardaş, yağışı nəzərdə tuturam, axı indi pambığın yarpağı yoxdur, yağsa məhsulun həm keyfiyyətini aşağı salar, həm də itkiyə gedər. İnşallah, nigarançılığımız əsassız olar.

Mən də bu səmimi arzuya qoşulduğumu bildirirəm: "Amin!". Ürəyimdə bu kəlməni yaradanlara da minnətdarlığımı izhar edirəm, yolumuza davam edirik. Bələdçim xüsusi vurğulayır ki, möhtərəm Prezidentimiz İlham Əliyevin pambıqçılığın inkişafı ilə bağlı səyləri və atdığı addımlar yerlərdə hamının ürəyincə olduğundan əməkçilərdə yüksək əhval-ruhiyyə yaradıb. Eyni zamanda, müsahibim yol boyu on illərin təcrübəsinin verdiyi arxayınçılıqla pambığın necə gəlirli məhsul olduğunu bir-bir xırdalayır və həm də bunu elə ürəkdən edir ki, ömründə bir qarış yeri olsun belləməyən mən də az qala pambıq əkibbecərmək həvəsinə düşürəm.

Və nəhayət, üzü Şamaxıya sarı dönürük. Bir azdan gəlib çatırıq onlarca qız-gəlinin yığım apardığı sahəyə. Elə yadımdan çıxmamış deyim ki, bir az əvvəlki həvəsimi ürəyimdəcə boğuram. Bəs necə, atalar düz deyib: "Çörəyi ver çörəkçiyə, birini də üstəlik". Yol gələrkən bizi yarım saatdan çox günün altında gözlətdirən fotoqrafdan acıq çıxırmış kimi, peşəmə sadiqliyimi və təcrübəli olduğumu ifadə edən bir ədayla "dəyərli məsləhətlərimi" verirəm:

--Qardaş, bax ha, aparatı götürüb camaatın canına düşmə. Elə et heç kim bilməsin ki, onların şəkili çəkiləcək. Özləri də bilmədən, pambıq yığdıqları yerdə çəkərsən.

Budur, artıq torpaqla Günəşin təması altında maşından düşürük və ilk andanca yandırıcı isti pambıqçıların dözümünə və iradəsinə qibtə, özümə qarşı isə utanc hissi oyadır. Öz- özümə, həm də heç kimin eşitməyəcəyi tonda deyinirəm: Vallah, hər oğulun hünəri deyil gəlib bu istidə pambıq yığsın. Bunu ustalıqla bacaran zəhmət adamlarına, doğrudan da, min alqış, min dəfə "afərin!" düşür. Hələ də "dəyərli məsləhətlərimdən" bir şey anlayıb-anlamadığını kəsdirə bilmədiyim fotoqraf yavaşca bizdən aralanır və pambıqçılar olan istiqamətə doğru yön alır. Özlüyümdə işimi təminat altına alırammış kimi səslənirəm:

– Dediklərimi unutma ha, adamlar fotoaparat görəndə özlərini itirirlər, ancaq obyektivə baxırlar, onda da şəkil süni çıxır.

Hə, bu tapşırıqdan sonra adamın ürəyinə sərinlik səpən rahatlıq duyğusu ilə ətrafı gözdən keçirirəm. Pambıq cərgələrinin arası elə təmizdir ki, az qala, əlli metr o yanını görmək mümkündür. Maşallah olsun, Allah pis nəzərdən saxlasın, sahələrdə pambıq, camaatın dediyi kimi, adamın lap üzünə gülür. Nə qədər təcrübəsiz olsam da, bunu asanlıqla ayırd edirəm ki, məhsul boldur. Bircə qalır imkanları səfərbər edib onu itkisiz yığmaq. Qurban olduğum (Allahı nəzərdə tuturam – S.H.) "gül kimi" (yəni yağışsız) hava da verib, daha nə istəyirik ki? Bir də ayıldım ki, bu sualı həm də özümə ünvanlamışam. Niyəsini də çox keçmədən özüm üçün aydınlaşdırdım. Axı pambıq, doğrudan da, strateji əhəmiyyətli məhsuldur (nahaq yerə ona "ağ qızıl" demirlər ). Bir-iki saat əvvəl icra başçısı Əhməd Muxtarovun dedikləri yadıma düşür:

– Pambıq bəlkə də yeganə məhsuldur ki, onun itkisi olmur.

Bu fikri hələ yol gələrkən təcrübəli yol yoldaşım da təsdiqləmişdi və mən artıq heç bir izahata ehtiyac duymadan yəqinlik hasil etmişdim ki, pambıq, doğrudan da, əvəzsiz nemətdir, sadəcə olaraq onun qədrini bilmək lazımdır. Biz isə çox şeylərin qədrini (lap elə pambıq kimi) və dəyərini çox gec bilirik. Amma atalar da yaxşı deyib axı (doğrusu, heç bilmirəm, bu atalar sözü olmasaydı, qələm əhlinin halı necə olardı): "Heç olmamaqdansa, gec olmağı yaxşıdır".

– Xoş gəlmisiniz. – Qəfil gələn bu səs məni düşüncələrdən ayırır. Təkrarən eşidirəm: – Xoş gəlmisiniz.

Özünü təqdim edir: Yunis Gözəlov, "MKT" Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndəsi.

Məni də Nurbala müəllim təqdim edir: Səmid müəllim "Xalq qəzeti"nin nümayəndəsidir. Hacıqabulda kənd təsərrüfatının inkişafı ilə bağlı yazı hazırlayır. İstədik pambıq sahəsini yerində görsün.

Açığı, adımın və rəsmi vəzifəmin bu cür təhrif olunmasından zərrəcə də (Eybi yox, Səmid adı Səmədə uyğundur. Bir də ki, o boyda kombayna "qambay" deyəndə buna min şükür. İkincisi də, "bölgə müxbiri"nə nisbətən "nümayəndə" sözü qulağa daha xoş gəlir) narahat olmadım. Təsərrüfat adamları belə məsələlərin fərqinə varmırlar. Onlarınkı işdir, əkib-becərməkdir, yüz əziyyətlə yetişdirdiyi məhsulu itkisiz-filansız yığıb halal çörəklərini qazanmaqdır. Bir sözlə, "torpaqda izi olanın süfrədə üzü olar" məsəli məhz bu cür təsərrüfatlarda zəhmət çəkən, alın təri ilə ruzi qazanan insanlara birbaşa şamildir.

Təsərrüfat barədə təəssürat yaradan bir neçə məlumatı öyrənmək istəyirəm. Təssərüfat nümayəndəsi deyir ki, bu il 400 hektarda pambıq əkilib və oktyabrın əvvəlindən yığıma başlanıb. Hazırda ərazidə 35-40 nəfər pambıq yığır. Əlavə edir ki, orta məhsuldarlıq 25-30 sentnerdir ki, bu da yaxşı göstərici sayılır. O, həmçinin qeyd edir ki, yığılan məhsulun pulu elə həmin gün yerindəcə verilir ki, camaat əziyyət çəkməsin. Sahələrdə məhsulun belə bol olmasının əsas səbəbi isə ondan ibarətdir ki, torpağa yüksək sertifikatlı "Ağ qızıl 400" və "Ağ qızıl 420" (R-1 və R-2) sortları əkilib. Yəni atalar demişkən, nə əkərsən, onu da biçərsən. Həmçinin pambığın vaxtında suvarılması və gübrələnməsi də əsas şərtdir ki, buna da dəqiqliklə əməl olunub. Eyni zamanda, növbəti ilə də hazırlıq işlərinin görüldüyünü deyən "MKT" nümayəndəsinin sözlərinə görə, 120 hektarda dərmanlama işləri görülüb və hazırda bu işlər 280 hektarda davam etdirilir. Gələn il üçün indikindən 100 hektar çox – 500 hektar sahədə pambıq əkini nəzərdə tutulub.

Əlverişli hava şəraitinin hər dəqiqəsi qızıl kimi qiymətli olduğundan pambıqçıları, sözün əsl mənasında, hünər adamlarını işdən ayırmağa ürək eləməsək də, sanki onların üzlərindəki ifadələri asanlıqla oxuyuruq. Bu da onlara yaşadıqları ərazidə iş yeri, qazanc imkanı yaradan dövlət başçısı İlham Əliyevə sonsuz minnətdarlığın ifadəsi idi. O üzlərdəki ifadə, eyni zamanda, gələcək günlərin daha yaxşı olacağına qətiyyətli inamın və nikbin əhval-ruhiyyənin ifadəsi idi…

Geri qayıdanda yol yoldaşımın narahatlığına şərik olaraq ürəyimdə Allaha yalvarırdım ki, heç olmasa bir-iki həftə möhlət ver, qoy camaat məhsulunu rahat yığa bilsin. Çox istəyirdim ki, bu diləyim hasil olsun…

...Şəhərdə hava bir balaca tutqunlaşan kimi narahatlığım artır, deyirəm, görəsən, Hacıqabula yağmır ki?

***Səməd HÜSEYNOĞLU,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***